TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
_________ E.M.Ağayev

"23" sentyabr 2009-cu il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**TİOTRİAZOLİN** inyeksiya üçün məhlul
THIOTRIAZOLIN

**Tərkibi**
*Təsiredici maddə:* Məhlulun 1 ml-də 0,01 q, yaxud 0,025 q tiotriazolin vardır;
*Köməkçi maddələr:* natrium-xlorid, inyeksiya üçün su

**Təsviri**
Şəffaf, rəngsiz və ya sarı çalarlı məhlul.

**Farmakoterapevtik qrupu**
Hepato- və kardioprotektor preparat.
**ATC kodu** :A05BA09**.

**Farmakoloji xüsusiyyətləri**
***Farmakodinamikası***
Farmakoloji effekti işemiya əleyhinə, antioksidant, membranstabilləşdirici və immunmodullaşdırıcı xassələrlə müəyyənləşir. Hepatositlərin məhv olmasının qarşısını alır, onların piy infiltrasiyasının dərəcəsini və qaraciyərin sentrolobulyar nekrozlarının yayılmasını azaldır, hepatositlərin regenerasiya proseslərinə kömək edir, onlarda zülal, karbohidrat, lipid və piqment mübadiləsini normallaşdırır. Ödün sintez və ifraz olunmasının miqdarını artırır, onun kimyəvi tərkibini normallaşdırır.
Tiotriazolin anaerob qlikolizin kompensator aktivləşməsini gücləndirir, Krebs siklində oksidləşmə proseslərinin tormozlanmasını hüceyrədaxili ATF fondun qorunması ilə azaldır. Preparat antioksidant sistemi aktivləşdirir və miokardın işemiyaya uğramış sahələrində lipidlərin oksidləşmə proseslərini tormozlaşdırır, miokardın katexolaminlərə qarşı həssaslığını azaldır, ürəyin yığılma funksiyasının proqressiv tormozlanmasının qarşısını alır, stabilləşdirir və müvafiq olaraq miokardın nekroz və işemiya zonalarını azaldır. Qanın reoloji xüsusiyyətlərini yaxşılaşdırır (fibrinolitik sistemin aktivləşməsi).
*Farmakokinetiksı*
Əzələ daxilinə yeridilmə zamanı tiotriazloinin qan tərkibində maksimal qatılığı – 0,84%-i, vena daxilinə yeridilmə zamanı – 0,1%-i, qan zülalları ilə əlaqələnməsi 10 %-ı aşmır. Tiotriazolin əsasən böyrəklərdə toplanır – 31 %. Xeyli miqdarı yoğun bağırsaqda, ürəkdə, dalaqda, ən az isə - nazik bağırsaqda və ağ ciyərdə (1-2 %) toplanır.

**İstifadəsinə göstərişlər**
Müxtəlif etiologiyalı xroniki hepatitlər, qaraciyər sirrozu. Ürəyin işemik xəstəliyi (əlavə vasitə kimi): kəskin iri- ya xirdaocaqlı miokard infarktı, gərginlik və sakitlik stenokardiyası, infarktdan sonrakı kardioskleroz, ürək ritminin pozğunluğu.

**Əks göstərişlər**
5 yaşa qədər uşaqlar.Böyrək çatışmazlığı olan xəstələr üçün preparatı təyin etdikdə ehiyatlı olmaq lazımdır.

**Xüsusi göstərişlər**
Vena daxilinə yeridilməsindən sonra 20-30 dəqiqə uzanmaq məqsədəuyğundur.
Klinikadanəvvəlki tədqiqatlar preparatda teratogen, embrioletal və embriotoksik təsirin olmamasını göstərmişdir. Buna görə hamiləlik və laktasiya dövründə preparat ana üçün gözlənilən faydanın döl üçün potensial riskdən üstün olduğu halda təyin olunur.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Tiotriazolindən kardioprotektor kimi ürəyin işemik xəstəliyinin müalicəsi üçün bazis vasitələri ilə kombinasiyada istifadə etmək olar. Hepatoprotektor kimi müvafiq etiologiyalı hepatitlərin ənənəvi müalicə üsulları ilə birlikdə istifadə oluna bilər.

**İstifadə qaydası və dozası**
Xroniki hepatit zamanı prosesin ifadə olunmuş aktivliyində və kəskin miokard infarktı zamanı ilk 5 gün ərzində Tiotriazolinin 2,5 %-li məhlulu gündə 2-3 dəfə hər dəfə 2 ml əzələ daxilinə və ya vena daxilinə (tədricən dəqiqədə 2 ml sürətlə) və ya 2,5 %-li məhlulundan 4 ml (100 mq) damcı şəklində dəqiqədə 20-30 damcı sürətlə (2,5 %-lı məhlulun 2 ampulu 150-250 ml fizioloji məhlulda həll olunur) yeridilir. Xəstəliyin 5-ci günündən 20-ci gününədək Tiotriazolin tablet şəklində təyin olunur (gündə 3 dəfə 100 mq). Minimal və orta aktivlik dərəcəli xroniki hepatit, gərginlik və sakitlik stenokardiyası, infarktdan sonrakı kardioskleroz zamanı Tiotriazolinin 1 %-lı məhlulu gündə 3 dəfə hər dəfə 2 ml əzələ daxilinə yeridilir. Müalicə kursu 20-30 gün təşkil edir.
Qaraciyər sirrozu zamanı müalicə kursu 60 gün təşkil edir. Müalicə 2,5 %-li məhlulundan 5 gün ərzində gündə 3 dəfə (100 mq gündə 3 dəfə) hər dəfə 2 ml əzələ daxilinə yeridilməklə başlanır, sonra müalicə tabletlərlə davam etdirilir (gündə 3 dəfə100 mq).
Kəskin viruslu hepatitlər zamanı 5 yaşından 11 yaşına qədər uşaqlar üçün xəstəliyin ilk 5 günü ərzində Tiotriazolinin 1 % və ya 2,5 %-lı məhlulu gündə 2 dəfə bədən kütləsinin hər kiloqramına 1-2 mq olmaqla əzələ daxilinə yeridilir, sonra 14 gün ərzində gündə 3 dəfə bədən kütləsinin hər kiloqramına 2 mq olmaqla tablet şəklində təyin olunur. Böyük yaşlı uşaqlar üçün Tiotriazolinin 2,5 %-lı məhlulu gündə 2 dəfə 2 ml əzələ daxilinə yeridilir, sonra 14 gün ərzində gündə 3 dəfə 1 (100 mq) tablet qəbul olunur.

**Əlavə təsirləri**
Preparat adətən orqanizm tərəfindən yaxşı qəbul olunur. Yüksək həssaslığa malik xəstələrdə aşağıdakı əlavə təsirlər meydana cıxa bilər: qaşınma, dərinin hiperimiyası, hərarət, səpgilər; fərdi hallarda digər dərmanların qəbulu fonunda angionevrotik ödem, övrə və bir halda Kvinke ödeminin meydana çıxması qeyd edilmişdir. Xüsusilə yaşlı xəstələrdə digər dərmanların qəbulu fonunda müşahidə olunmuşdur:
*Mərkəzi və periferik sinir sisteminə*: ümumi zəiflik, başgicəllənmə, qulaqlarda küy;
*Ürək-damar sisteminə*: taxikardiya, bir halda arterial hipertenziya, ürək nahiyəsində ağrı və ürək ritminin pozğunluqları;
*Həzm sisteminə*: dispeptik pozğunluqlar – ağızda quruluq, ürəkbulanma, qarında köp;
*Tənəffüs sisteminə*: bir halda təngnəfəslik və boğulma.